# Azərbaycan Tibb Universitetində Mədəniyyətlərarası Tələbə Festivalı

**Noyabrın 28-də Azərbaycan Tibb Universitetində "Müxtəlifliyi yaşa, birliyə töhfə ver" şüarı altında Mədəniyyətlərarası Tələbə Festivalı keçirilib. Müxtəlif ölkələrdən olan tələbələrin bir araya gələrək, adət-ənənələrini və özünəməxsus bacarıqlarını paylaşdıqları festivalda fərqli mədəniyyətlər təqdim olunub.**

AZƏRTAC xəbər verir ki, festivalda Liviya, Fələstin, Sudan, Özbəkistan, Misir, Türkiyə, Pakistan, Belarus və Mərakeşin ölkəmizdəki səfirləri, eləcə də İraq və Kolumbiya səfirliklərinin nümayəndələri iştirak ediblər.

Əvvəlcə festival iştirakçıları və qonaqlar 23 ölkənin mədəniyyətini özündə əks etdirən guşələrə baş çəkiblər. Müxtəlif xalqların ənənəvi rəqsləri, musiqisi və milli geyimlərindən zövq alan, fərqli ölkələrin mətbəxinə məxsus yeməklərin dadına baxan festival iştirakçıları sənət və sənətkarlıq sərgilərini də maraqla izləyiblər. Həmçinin əl işləri və etnik eksponatlarla tanış olaraq əyləncəli və interaktiv sessiyalar vasitəsilə müxtəlif mədəniyyətləri daha yaxından öyrəniblər.

Festivalın açılışında çıxış edən Azərbaycan Tibb Universitetinin rektoru professor Gəray Gəraybəyli ATU-nun keçdiyi inkişaf yolundan, universitetin mühüm nailiyyətlərindən və bu il təntənə ilə qeyd olunan 95 illik yubileyindən bəhs edib.

Rektor qeyd edib ki, beynəlxalq festival müxtəlif ölkələrin mədəniyyətlərini, adət-ənənələrini öyrənmək məqsədini daşıyır. Bu tədbir ölkələrarası əlaqələrin genişləndirilməsinə böyük töhfə verəcək. Gəray Gəraybəyli diqqətə çatdırıb ki, ATU-da beynəlxalq münasibətlərin inkişafı hər zaman diqqət mərkəzində olub: "Universitetimizdə əcnəbi məzunların ilk buraxılışı 1969-cu ildə baş tutub. Bu o deməkdir ki, ilk beynəlxalq tələbə qəbulu 1963-cü ildə - 62 il əvvəl keçirilib. Bu gün ATU-da 53 dövlətin vətəndaşı olan 2600 tələbə ən yüksək səviyyədə təhsil alır. Bu rəqəm universitetimizin beynəlxalq arenada olan nüfuzunun göstəricisidir".

Professor müasir dünyada multikulturalizm və mədəniyyətlərarası dialoqun rolundan danışaraq ATU-da təhsil alan əcnəbi tələbələrin universitetin həyatına olan töhfə və uğurları haqqında məlumat verib. Bugünkü tədbirdə 23 ölkənin mədəniyyətinin bir araya gəldiyini vurğulayan rektor qeyd edib ki, bu cür beynəlxalq miqyaslı tədbirlər müxtəlif ölkələrdən olan tələbələr arasında dostluq əlaqələrini inkişaf etdirir və eyni zamanda yerli və əcnəbi tələbələr arasında mədəniyyət körpüsü rolunu oynayır.

Festivalda Mərakeş Krallığının səfiri Mohamed Adil Ambarch təbrik nitqi ilə çıxış edib.

Mədəniyyətlərarası Tələbə Festivalı qala-konsertlə yekunlaşıb.

Qeyd edək ki, tədbir çərçivəsində panel sessiyalar da keçirilib.

Dayanıqlı inkişaf məqsədlərinə həsr olunan sessiyada tələbə festivalının əhəmiyyətindən və əsas məqsədlərindən söz açan ATU-nun Stomatologiya fakültəsinin dekanı, dosent Elmira Əliyeva xatırladıb ki, "Dayanıqlı İnkişaf üçün 2030 Gündəliyi"ndə 17 qlobal məqsəd və 169 konkret hədəf yer alır. Dayanıqlı İnkişaf Məqsədləri bütün ölkələr üçün fəaliyyət çağırışıdır. Onlar insanların rifahını yaxşılaşdırmağı və planetimizin qorunmasını təmin etməyi hədəfləyir.

Azərbaycan.- 2025.- 29 noyabr (№253).- S.10.